

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 24 (21.434)

*6 fevral 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Mədəniyyət işçilərinin zona müşavirəsi keçirilib



***Fevralın 5-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Culfa şəhərində tədris işinin təşkili ilə bağlı zona müşavirəsi keçirilib. Ordubad və Culfa rayonlarında fəaliyyət göstərən mədəniyyət müəssisələri nümayəndələrinin iştirakı ilə keçirilən müşavirəni Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açıb.***

Bildirilib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin qarşısında muxtar respublikadakı uşaq musiqi məktəblərinin fəaliyyətinin gücləndirilməsi, ixtisaslı kadrların seçilməsi və düzgün yerləşdirilməsinin təmin olunması, folklorumuzun, bütövlükdə, milli dəyərlərimizin təbliği, turizm sektorunun inkişafı istiqamətində səylərin artırılması kimi vəzifələr qoyulub.

Qeyd olunub ki, nazirliyin tabeliyində 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. 2014-2015-ci tədris ilində muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini müxtəlif ixtisaslar üzrə 1136 nəfər şagird bitirib. 2015-2016-cı tədris ilinə isə 16 ixtisas üzrə 1285 şagird qəbul edilib və hazırda bu məktəblərdə 7200-dən çox şagird təhsil alır.

Vurğulanıb ki, yeni təhsil müəssisələrinin inşası, onların texniki və kadr təminatının yaxşılaşdırılması, məktəblərin müasir informasiya texnologiyaları və pulsuz dərsliklərlə təmin edilməsi bu sahəyə göstərilən dövlət qayğısının ifadəsidir. Təkcə 2015-ci ildə iki uşaq musiqi məktəbi üçün – Sədərək Rayon Uşaq Musiqi Məktəbi və Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin yeni binalarının açılışı olub.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası üzrə həyata keçirilən tədbirlərin onların cəmiyyətə inteqrasiyası və təhsili üçün əlverişli şərait yaratdığını deyən nazir bildirib ki, 2015-2016-cı tədris ilində bir neçə bu kateqoriyadan olan uşaq musiqi məktəblərinə cəlb edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, tədrisin mərkəzləşdirilməsi, məktəblərin tədris vəsaitləri ilə təmin edilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi sahəsində bir sıra işlər görülüb. Belə ki, nazirlik tərəfindən muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün "Vahid tədris proqramları" adlı vəsait hazırlanıb. Mütəxəssislər tərəfindən hazırlanmış tədris proqramları məktəblərə paylanılıb və işin bu əsasda qurulması təmin olunub. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil edilən ustad dərslər, müsabiqə və intellektual oyunlar məktəblərdə tədrisin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bundan əlavə, məktəblərdə kadrların düzgün seçilib yerləşdirilməsi məsələsi də ən vacib və aktual məsələlərdən biridir. Bu sahə üzrə kadrların yetişdirilməsi üçün Naxçıvan şəhərində həm orta ixtisas, həm də ali təhsil müəssisəsi vardır. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində bu sahə üzrə 9 ixtisas, Naxçıvan Musiqi Kollecində isə 10 ixtisas üzrə kadr yetişdirilir.

Vurğulanıb ki, məktəblərə bəzən bilik, bacarıq və qabiliyyəti nəzərə alınmadan müəllimlər qəbul edilib. Bu kimi neqativ halların qarşısını almaq məqsədilə məktəblərdə kadrların yerləşdirilməsi Mədəniyyət və Turizm Nazirliyinin nəzarətinə götürülüb, 2015-2016-cı tədris ilinin başlanması ilə kadrların yerləşdirilməsi məsələsi mərkəzləşdirilib. Belə ki, nazirlik tərəfindən imtahan komissiyası yaradılıb və həmin komissiya tərəfindən sentyabr ayında hazırlıqlar aparılıb, müsbət rəy alanlar nazirliyin əmri ilə müvafiq məktəblərə yerləşdirilib. Hazırda kadrların məktəblərə yerləşdirilməsi bu qayda ilə davam etdirilir.

Natəvan Qədimova məktəblərdəki şagird kontingentinin komplektləşdirilməsinin düzgün aparılmaması, bəzi məktəblərdə ixtisas dərslərinin zəif keçilməsi, qrup dərslərində vəziyyətin qənaətbəxş olmamasından da danışıb. Nazir sadalanan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün Mədəniyyət və Turizm şöbələri müdirlərinin və məktəb direktorlarının əməli fəaliyyət göstərməli olduqlarını bildirib, verilən tapşırıqlara ciddi əməl etmələrinin vacibliyini vurğulayıb.

Sonra məruzə ətrafında Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Füzuli Hüseynlinin, Ordubad Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyevin, Culfa Şəhər Uşaq Musiqi Məktəbinin direktor əvəzi Elşad Rzayevin və Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin direktoru Azər Məmmədovun çıxışları olub, müzakirələr aparılıb.

Müşavirəyə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurub.

**✍ Səbuhi HƏSƏNOV**

## Ədliyyə Nazirliyində işləmək istəyənlər test imtahanı veriblər

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra xidmətində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanı keçirilib.***

Müsabiqədə iştirak etmək üçün sənəd təqdim edən 13 namizəddən 11 namizəd test imtahanında iştirak edib. İmtahan başlamazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan qaydaları və test suallarının cavablandırılması haqqında məlumat verilib. İmtahanda namizədlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün 3 saat vaxt verilib. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. Test imtahanı bitdikdən dərhal sonra namizədlərə cavab kartı və imtahanın nəticəsinə dair arayış təqdim edilib. Test imtahanında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası



Regional Bölməsinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər. İmtahanda keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanıblar.

**✍ Səbuhi HÜSEYNOV**

## Daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan istifadəyə nəzarət artırılıb

Naxçıvan Muxtar Respublikasında dövlət qurumlarının fəaliyyətinə hərtərəfli şəraitin yaradılması, yeni texnologiyaların tətbiqi vətəndaşlara göstərilən xidmətin səviyyəsini yüksəltmişdir. 2016-cı ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə işlər mütəşəkkilliklə davam etdirilmiş, operativliyin artırılması diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrinin aparılması sahəsində görülən işlərin nəticəsi olaraq muxtar respublika üzrə 459 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Şərur rayonunun Axaməd və Qarxun, Şahbuz rayonunun Sələsüz, Kəngərli rayonunun Yurdçu, Ordubad rayonunun Qoşadizə, Culfa rayonunun Boyəhməd, Babək rayonunun Güznüt və Zeynəddin kəndlərində vətəndaşlara səyyar xidmət göstərilmiş, 114 müraciətə baxılmışdır. Bundan başqa, muxtar respublikada ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yaranmış 73 yeni daşınmaz əmlak obyektinə ünvanlar verilmiş və ünvan xəritələrində qeydiyyatı aparılmışdır.

Muxtar respublika üzrə ümumi və suvarılan torpaqlardan istifadə vəziyyətinə dair torpaq balansı tərtib edilmiş, Culfa və Şahbuz rayonlarında torpaq mülkiyyətçilərinin, istifadəçilərinin, icarəçilərinin, yerli icra hakimiyyəti və bələdiyyə nümayəndələrinin iştirakı ilə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların təyinatı üzrə istifadə edilməsinə və mühafizəsinə dair maarifləndirici tədbirlər keçirilmişdir. Bu dövrdə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 27 noyabr tarixli Qərarına uyğun olaraq mövcud elektron xidmətlərin reqlamentləri üzərində müvafiq düzəlişlər aparılaraq internet saytında yerləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi muxtar respublikada torpaqlardan təyinatı üzrə səmərəli istifadə edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi, vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınması istiqamətində işləri bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Pensiya və müavinətlərin ödənişi vaxtında başa çatdırılmışdır

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən yanvar ayında əhaliyə bütün növ pensiya və müavinətlər vaxtında ödənilmişdir. Belə ki, ötən ay məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar da nəzərə alınmaqla, 9 milyon 485 min 72 manat vəsait pensiyaçıların şəxsi hesablarına köçürülmüşdür. Həmçinin məcburi dövlət sosial sığorta alan vətəndaşların şəxsi hesabına və ya poçt ünvanına 246 min 124 manat müavinət göndərilmişdir. Bu dövrdə fondun gəlirləri 4 milyon manat proqnoza qarşı 4 milyon 646 min 230 manat həcmində olmuş və proqnoz tapşırıqlara 116,2 faiz əməl olunmuşdur.

Ötən ay "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 189 vətəndaşa əmək pensiyası təyin olunmuşdur ki, onlardan da 98-i yaşa görə, 46-sı əlilliyə görə, 45-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlardır. Ay ərzində yeni təyin olunan əmək pensiyaçılarına plastik kartların verilməsi və istifadə müddəti başa çatan plastik kartların yeniləri ilə əvəzlənməsi üçün müvafiq müvəkkil banklara 2936 kart sifarişi verilmişdir. Yeni əmək fəaliyyətinə başlayan 624 nəfər sosial sığorta şəhadətnaməsi ilə təmin edilmişdir.

Hazırda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 yanvar tarixli "Yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması haqqında" və 2016-cı il 25 yanvar tarixli "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" sərəncamlarının icrası üçün müvafiq tədbirlər həyata keçirilir. Bu ilin fevral ayından etibarən pensiyalar artımlar nəzərə alınmaqla ödəniləcəkdir.

Ötən ay elektron sənəd mübadiləsinin və idarəetmənin səmərəliliyinin artırılması istiqamətində də işlər davam etdirilmişdir. Hazırda fond tərəfindən təqdim olunan 20 elektron xidmətin 15-dən istifadə olunur. Həmçinin fond və onun yerli orqanları tərəfindən sığorta-pensiya qanunvericiliyi sahəsində təbliğat və maarifləndirmə işləri də davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Muxtar respublikada əhalinin dinamik artımı davam edir

***Hər bir ölkənin, cəmiyyətin ən dəyərli varlığı insandır. Ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da əhalinin həyat və məişət şəraitinin yaxşılaşdırılması, cəmiyyətin əsas özəyi kimi ailənin dövlətin xüsusi himayəsində olması demoqrafik proseslərə müsbət təsir göstərmiş, əhali artımının dinamikliyi təmin edilmişdir.***

Muxtar respublikada 1 yanvar 2016-cı il tarixə əhalinin sayı bir il öncəyə nisbətdə 4 min 641 nəfər artaraq 444 min 423 nəfər olmuşdur. Hazırda muxtar respublika əhalisinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin 29,5 faizi şəhər, 70,5 faizi isə kənd yerlərində yaşayır. Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 81 nəfər olmuşdur ki, bu da 1 yanvar 1996-cı illə müqayisədə 20 nəfər çoxdur.

1995-ci ilin sonu ilə müqayisədə əhalinin sayı 106,6 min nəfər artmışdır. Son 20 il ərzində muxtar respublikada 62,4 min nikah bağlanmış, 153,5 min uşaq doğulmuşdur.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölümlərin, o cümlədən 1 yaşa qədər ölən uşaqların sayını aşağı salmışdır. Əgər 1995-ci ildə ölüm göstəricisi əhalinin hər min nəfəri hesabı ilə 6 nəfər olmuşdursa, hazırda bu göstərici 4,2 nəfər təşkil edir. Hər min nəfər doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 1995-ci ildə 20,6 nəfər qeydə alındığı halda, 2015-ci ildə bu göstərici 0,8 nəfər təşkil etmişdir.

Doğumun dinamik artımı muxtar respublika əhalisinin sayında gənclərin ümumi sayının artmasına müsbət şərait yaratmışdır. Əgər 1995-ci ildə gənclərin sayı ümumi əhalinin 22 faizini təşkil edirdisə, 1 yanvar 2016-cı il tarixə bu göstərici 30,8 faizə çatmışdır. 1995-ci illə müqayisədə gənclərin sayı 62,6 min nəfər artaraq 137 min nəfərə yaxın olmuşdur.

Bu gün muxtar respublikada əhalinin, xüsusən gənclərin dinamik artımı göstərir ki, əhalinin bütün qrupları arasında sağlam həyat tərzi təmin edilmiş, ailələrin sosial müdafiəsi gücləndirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

İcmal

# Cari ilin ilk ayının nəticələri yeni uğurlara təminat verir

***Müasir dövrdə dayanıqlı inkişafı təmin etmək üçün məqsəd və hədəflərin düzgün müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir, uğurlu nəticələrə yol açır. Gələcəyimiz isə yalnız ötən illərdə qazanılan uğurların üzərində qurula bilər. Ötən il ərzində görülən işlərin hesabatının verildiyi və qarşıda duran vəzifələrin müəyyənləşdirildiyi yanvar ayı bu mənada muxtar respublikamızın həyatında mühüm hadisələrlə yadda qalıb.***



Muxtar respublikamızda artıq təbii-iqtisadi imkanlardan istifadə etməklə çox güclü və dayanıqlı bir iqtisadiyyat formalaşdırılıb. İstər ümumi iqtisadi, istərsə də sənaye, kənd təsərrüfatı, sosial və digər sahələrə dair göstəricilərin dinamik formada dəyişməsi, ilbəil artması inkişaf tempinin yüksək olduğunu göstərir. Məhz buna görə də muxtar respublika sakinləri yeni ilin gəlişini elliklə, qurub-yaratmaq əzmilə, böyük ruh yüksəkliyi qeyd ediblər. Sakinlər 2016-cı ilin ilk günlərini sevinc hissi ilə qarşılayıblar. İnsanlar əmindirlər ki, ölkəmizin, o cümlədən muxtar respublikamızın davamlı inkişaf və tərəqqisi bu il də bütün sahələrdə nailiyyətlərin qazanılmasına imkan verəcəkdir.

Yanvarın 1-də Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzlərində bayram şənlikləri keçirilib. Naxçıvan şəhərinin sakinləri ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan prospektdəki mərkəzi meydanda təşkil olunan bayram şənliyində iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyinin keçirildiyi mərkəzi meydana gəlib, sakinlərin Yeni il bayramını təbrik edib.

Ötən illər ərzində ardıcıl həyata keçirilən tədbirlər, görülən işlər nəticəsində bu gün Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsinə qədəm qoyub. Həyata keçirilən uğurlu inkişaf strategiyası, aparılan geniş tikinti-quruculuq işləri muxtar respublikanın bütün ərazisini əhatə edib, paytaxt Naxçıvan şəhəri, rayon mərkəzləri ilə yanaşı, qəsəbələrimiz və kəndlərimiz yeniləşmə prosesinə qoşulub. Kəngərli rayonu da sürətli sosial-iqtisadi inkişafdan bəhrələnərək abadlaşıb, gözəlləşib. Dövlətimiz tərəfindən rayona hərtərəfli qayğı göstərilir, bütün məsələlərin həlli istiqamətində məqsədyönlü işlər görülür. Rayonun camaatı da işgüzar və zəhmətsevərdir. Qurub-yaratmaq eşqilə yaşayan sakinlər göstərilən diqqət və qayğının müqabilində doğma yurdun çiçəklənməsi, güzəranın günbəgün yaxşılaşması üçün əllərindən gələni əsirgəmirlər.

Muxtar respublikada insan amili daim diqqət mərkəzindədir. İnsana qayğını özündə təcəssüm etdirən bu inkişaf Kəngərli rayonunun bütün kəndlərini əhatə edib, müasir məktəb binaları, səhiyyə və mədəniyyət ocaqları tikilib istifadəyə verilib, yollar abadlaşdırılıb, sənaye müəssisələri yaradılıb, yeni iş yerləri açılıb. Rayonun Yurdçu kəndində kompleks şəkildə aparılan tikinti-quruculuq işlərindən – yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsindən sonra Kəngərli rayonu bütün yaşayış məntəqələri abadlaşmış rayona çevrilib. Bu gün həmin rayon başdan-başa abadlığın, quruculuğun, nəhayət, insan əməyinin gözəl nümunəsi kimi diqqətləri cəlb edir. Bu, qurucu rəhbərimizin muxtar respublikanın hər bir yaşayış məntəqəsinə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Bu reallığı təkcə biz deyil, muxtar respublikamızdakı tikinti-quruculuq nümunələrini görən hər kəs deyir. Yurdçu kəndində inşa olunan məktəb binası möhtəşəmliyi ilə heç də universitet binasından geri qalmır. Bu sözü təsadüfən demədim. Sosial şəbəkədə paylaşdığım həmin binanın şəklini görən ölkəmizdən və xarici ölkələrdən olan həmkarlarımın böyük əksəriyyəti Yurdçu kənd tam orta məktəbini universitet binasına oxşadıb. Burada şagirdlərin ən müasir səviyyədə təhsil alması üçün hər cür şərait yaradılıb. Məktəbin elektron lövhələrlə, kompüterlərlə təmin olunması şagirdlərin yeni texnologiyalardan istifadə vərdişlərinə yiyələnmələrinə, intellektual səviyyəyə malik gənclərin formalaşdırılmasına şərait yaradıb. Biz inkişaf etmiş ölkələrin təcrübəsinə də nəzər salanda görürük ki, onların qazandığı uğurun əsas səbəbi təbii sərvətləri deyil, təhsildir, bilikdir, savaddır. Bizim isə həm zəngin təbii ehtiyatlarımız, həm də təhsilin, elmin inkişafına hesablanmış dövlət siyasətimiz var. Bu amillərin sintezi muxtar respublikamızı çox qabaqcıl, müasir diyara çevirir.

Hazırda dünyada iqtisadi böhran hökm sürür, neftin qiyməti kəskin şəkildə aşağı enməkdədir. Söz yox ki, bu da bizim iqtisadiyyatımıza təsirsiz ötüşmür. Belə bir şəraitdə Yurdçu kəndində möhtəşəm məktəb binasının tikintisi təhsilə, təhsil işçilərinə, şagirdlərə, gələcəyimiz olan gənclərə göstərilən böyük qayğıdır.

Qeyd etdiyimiz kimi, bu gün muxtar respublikanın kənd yaşayış məntəqələrində insanların rahat yaşayışı üçün zəruri infrastruktur qurulur. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən quruculuq tədbirlərindən Babək rayonunun Xəlilli kəndinə də pay düşüb, kənddə yeni sosial obyektlər inşa olunub. Yanvarın 22-də Xəlilli kənd tam orta məktəbinin yeni binasının, kənd və xidmət mərkəzlərinin açılışı olub. Bu kənddə əhalinin rifahı naminə bütün işlər görülüb, mənzillər daimi qaz, elektrik enerjisi, televiziya, rabitə və internet xidmətləri ilə təmin olunub. Bu gün həm Xəlilli, həm də Yurdçu kəndləri şəhərə xas sosial həyatın mühüm elementlərinə malikdirlər. Belə ki, əvvəllər "kənd" deyəndə uçuq-sökük məktəb və pəncərəsinə karton tutulmuş kolxoz idarə binaları, yarıqaranlıq, nəm çəkmiş ərzaq mağazası və bir də hamının yaxşı tanıdığı anbardarı olan bir yaşayış məntəqəsi başa düşülürdü. Bu gün isə kəndlərdə tamam başqa bir mənzərənin şahidiyik. Yurdumuzun hər guşəsini qucaqlamış geniş quruculuq Naxçıvanda şəhərləşən kəndlərin meydana gəlməsinə, kəndlərin müasir, mədəni yaşayış məskənlərinə çevrilməsinə səbəb olub. Bu gün heç kəsə sirr deyil ki, dünyada baş verən proseslərin əksinə olaraq, muxtar respublikada şəhərlərdən kəndlərə doğru bir axın yaranır. Çünki bu gün Naxçıvanda bir sıra kəndlərdə elə yüksək şərait yaradılıb ki, burada insan özünü şəhərdəki kimi rahat hiss edir. Kəndin saf, təmiz havasını və digər amilləri də buna əlavə etdikdə, təbii ki, bu yerlər insanlar üçün daha cazibədar görünür.

Ali Məclisin Sədri Xəlilli kəndinin sakinləri ilə görüşündə bu məsələyə toxunaraq deyib: ***"Xəlilli kəndi muxtar respublikanın müasir kəndlərinin sırasına qoşulmuşdur. Kənddə geniş quruculuq işləri aparılmışdır. Bu işlərin davamı olaraq Şıxmahmud və Xəlilli kəndlərində su-kanalizasiya layihəsi də həyata keçiriləcək, kənd yollarına asfalt örtük salınacaqdır. Həyata keçirilən kompleks quruculuq işləri kəndlə şəhər arasındakı fərqin azalmasına, sakinlərin həyat şəraitinin yaxşılaşmasına və məskunlaşmanın artmasına səbəb olmuşdur. Bütün bunlar ölkəmizdəki sabitliyin, dövlət-xalq birliyinin, həyata keçirilən davamlı sosial-iqtisadi islahatların nəticəsində mümkün olmuşdur".***

Bütün zamanlarda hər bir cəmiyyətin dayağını sağlambədənli və sağlamruhlu insanlar təşkil ediblər. Bu baxımdan bədən tərbiyəsi və idman insanın kamilləşməsinə və sağlamlığının möhkəmlənməsinə xidmət edir. İdmanın inkişafı hər bir diyarın ümumi inkişafının göstəricisi hesab olunur. Bu sahədə əldə edilən nailiyyətlər, əlbəttə ki, bizi gələcək uğurlara sövq edir. Yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə keçirilən müşavirə bu baxımdan böyük əhəmiyyət kəsb edir. Müşavirə uşaqların, yeniyetmələrin və gənclərin sağlamlığının qorunmasının, idmanın inkişafı üçün vacib məsələlərin yenidən gündəmə gətirilməsi ilə yadda qalıb. Müşavirədə muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafının, uşaq, yeniyetmə və gənclərin sağlamlıqlarının möhkəmləndirilməsinin, onların fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin, fiziki fəaliyyətlərdə kütləviliyin təmin edilməsi məqsədilə, xüsusən təhsil müəssisələrində lazımi tədbirlərin görülməsinin əhəmiyyəti vurğulanıb. Uşaq və yeniyetmələrin, xüsusən qızların idmanla məşğuliyyətə həvəs və marağının yüksəldilməsi məqsədilə işlək mexanizmlərin hazırlanması, bu məsələlərin daim diqqət mərkəzində olmasının əhəmiyyəti qeyd edilib. Qarşıya konkret vəzifələr qoyulub, icra mexanizmlərinin təkmilləşdirilməsi, idman federasiyalarının fəaliyyətinin genişləndirməsinin önəmi diqqətə çatdırılıb.

20 Yanvar ölkəmizin şanlı tarixində və xatirələrimizdə həm faciə, həm də qürur günü kimi qalacaqdır. Bu günü qürur günü adlandırırıq, ona görə ki, əliyalın Vətən övladları dünyanın ən böyük dövlətlərindən birinin – sovet imperiyasının təpədən-dırnağadək müasir silahlarla silahlanmış ordusuna qarşı qorxmadan, cəsarətlə müqavimət göstərib, "azadlıq" deyərək hayqırıb, insanlar arasında həmrəylik ən yüksək həddə çatıb. 20 Yanvar gününü həm də faciə günü kimi xatırlayırıq. Ona görə ki, o müdhiş gecədə yüzlərlə silahsız və günahsız Azərbaycan türkü vəhşicəsinə qətlə yetirilib.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da hər il 20 Yanvar şəhidlərinin xatirəsi əziz tutulur, şəhər və rayonlardakı şəhidlər xiyabanlarını minlərlə insan ziyarət edir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını ziyarət edib. Ali Məclisin Sədri xiyabandakı "Ana abidəsi"nin önünə əklil qoyub, şəhidlərin xatirəsinə ehtiramını bildirib.

Tarixi keçmişimizə sahib çıxmaq həm də milli varlığımıza, qədim dövlətçilik ənənələrinə sahib çıxmaq deməkdir. Bu mənada, Naxçıvanda tariximizin öyrənilməsi istiqamətində çox böyük işlər görülüb. Şəhərsalma mədəniyyətinin beşminillik, dövlətçiliyimizin isə ikiminillik məkanı olan qədim diyarda, həm də bu sahədə görülən işlər hər bir azərbaycanlıda qürur hissləri yaradır. Muxtar respublikada aparılmış elmi tədqiqatlar Naxçıvan tarixi ilə bağlı ümumiləşdirilmiş əsərin hazırlanması məsələsini aktuallaşdırmışdı. Bütün bunlar nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 6 avqust tarixli Sərəncamına əsasən üç cilddən ibarət "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanmasına başlanılıb. Ötən üç il ərzində bu istiqamətdə aparılan işlər öz bəhrəsini verib. Yanvarın 26-da Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Naxçıvan tarixi" çoxcildliyinin təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvanın elmi həyatında mühüm hadisə olan "Naxçıvan tarixi" çoxcildliyinin təqdimatı münasibətilə muxtar respublika ziyalılarını və elmi ictimaiyyəti təbrik edib, ümummilli liderimiz Heydər Əliyevin ***"Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır"*** fikrini xatırladıb.

Ali Məclisin Sədri deyib: ***"Hər bir xalqın tarixi o xalqın milli kimlik pasportudur. Təsadüfi deyil ki, müasir dövrdə o xalq mütərəqqi dəyərlərə malik xalq hesab olunur ki, onun qədim tarixi, dövlətçilik ənənələri, mədəniyyəti olsun. Bütün bunlar bizdə – tarix boyu bu torpaqlarda yaşamış Azərbaycan türklərində vardır. Ona görə də bu gün öz tariximizə, milli dəyərlərimizə, dövlətçilik ənənələrimizə sahib çıxır, tədqiqatlar, elmi araşdırmalar aparır, xalqımızın sabahı olan yeni nəsli tarixi köklər üzərində yetişdiririk. Tarixi yazmaq nə qədər vacibdirsə, onu öyrənmək və öyrətmək, gənc nəslə aşılamaq da o qədər vacibdir. "Naxçıvan tarixi" çoxcildliyi ali təhsil müəssisələrində dərslik kimi tədris olunmalı, bu qədim diyarın tarixinin müxtəlif mərhələlərinə ətraflı nəzər salınmalı, elmi müzakirə və konfranslar keçirilməlidir. "Naxçıvan tarixi" teleradio və qəzetlərdə geniş təbliğ olunmalıdır".***

Alimlərimiz "Naxçıvan tarixi" çoxcildliyinin nəşrini bütövlükdə Azərbaycan elmində əlamətdar hadisə hesab edirlər. Azərbaycançılıq ideologiyasının əsas istiqamətlərini əks etdirən çoxcildlik Naxçıvanın tarixi barədə ilk ümumiləşdirilmiş elmi əsər kimi mühüm əhəmiyyətə malikdir. "Naxçıvan tarixi" çoxcildliyində tarixə hərtərəfli baxış prinsipi ortaya qoyulub, ən qədim dövrlərdən günümüzədək Naxçıvanda elmin, mədəniyyətin, ədəbiyyatın, sənətkarlığın, eləcə də mətbuatın inkişafı tariximizin ayrılmaz tərkib hissəsi kimi araşdırılıb.

Yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 2015-ci ildəki fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib. İclasda Ali Məclisin Sədri təşkilatın fəaliyyətinin daha da genişləndirilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verərək deyib: ***"2016-cı ildə Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin 25-ci ildönümü tamam olacaqdır. Bununla bağlı partiyanın şəhər və rayon təşkilatları tədbirlər keçirməlidirlər. Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyəti partiyamızın ilk və fəal siyasi qurumu kimi daim nümunə olmalı, "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" olan 2016-cı ildə fəaliyyətini daha da gücləndirməlidir. Cari ildə də siyasi, ideoloji və təşkilati fəaliyyətimiz davam və inkişaf etdirilməlidir".***

***Bu il muxtar respublikamızda "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunub. Nizam-intizam yüksək tələbkarlığın, prinsipiallığın, yorulmaz fəaliyyətin, əqidə bütövlüyünün, dərin sədaqətin və nəhayət, vətənpərvərliyin tamamlayıcı amili kimi daim diqqəti cəlb edir. Nizam-intizamın olmadığı diyarlarda, ölkələrdə xaos, anarxiya, özbaşınalıq kimi arzuolunmaz dağıdıcı meyillər yaranır, faciələrə yol açan hadisələr baş verir. Yəni nizam-intizam inkişafla yanaşı, həm də davamlı sabitliyin, əmin-amanlığın açarıdır. Məlumdur ki, sabitliyin olmadığı yerdə nailiyyətlərdən söhbət belə, gedə bilməz. Bu gün inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən sərhədində alınmaz qalaya çevrilmiş Naxçıvan Muxtar Respublikası da məhz güclü nizam-intizamın nəticəsində bu səviyyəyə yüksəlib. Yəni biz nizam-intizama əməl etməklə, onun möhkəmlənməsinə çalışmaqla sürətli inkişaf templərini qoruyub saxlaya biləcəyik.***

**Rauf ƏLİYEV**

# Oxucu məktubları

*"Şərq qapısı" qəzetinə yazırlar*

## Naxçıvandan xoş təəssüratlarla ayrıldım

***Salam, hörmətli redaksiya!*** *Məni bu məktubu yazmağa yaxın günlərdə Naxçıvanda gördüyüm gözəlliklər vadar etdi. Açığını deyim ki, işğal altında olan rayonlarımız da daxil olmaqla indiyədək Azərbaycanın bir çox bölgələrində olmuşam. Ancaq Şərqin qapısı sayılan Naxçıvanla yaxından tanış olmamışdım. Yalnız 1985-ci ildə İrəvandan Bakıya gələrkən Naxçıvan ərazisindən keçmişəm. Ancaq, sən demə, bu qədim Azərbaycan torpağında üç-dörd günlük qonaq olmaq qismətimdə varmış. Belə ki, kiçik oğlumun Naxçıvanda hərbi xidmət etməsi yeni ilin ilk günlərində muxtar respublikaya gəlməyimə imkan yaratdı və burada gördüklərimdən aldığım xoş təəssüratları qəzetinizin bütün oxucuları ilə bölüşmək qərarına gəldim.*

Əvvəlcə deyim ki, təyyarədən endikdən sonra buradakı hava limanı çox xoşuma gəldi. Yük çantalarımızı aldıqdan sonra ətrafa göz gəzdirdim. Müasir üslubda yaradılmış gözləmə zalı, ətrafdakı səliqə-sahman, sıra ilə düzülmüş taksilər və minik avtomobilləri insanın ilk baxışdan diqqətini cəlb edir. "Təbriz" mehmanxanası haqqında əvvəllər naxçıvanlı dostlardan eşitmişdim, buna görə də taksi sürücüsündən birbaşa ora sürməyi xahiş etdim. Şəhərin mərkəzində olan bu mehmanxananın hərtərəfli şəraiti, buradakı yüksək xidmət məni tam qane etdi. Xüsusilə xidmətçilərin bura gələn qonaqlara isti münasibəti çox xoşuma gəldi və burada qaldığım 4 gün müddətində bunu hər addımda hiss etdim.

Naxçıvan haqqında təəssüratlarım o qədər böyükdür ki, bunu yazmaqla qurtarmaq olmaz, ancaq mən əsas məsələlər üzərində dayanmaq istərdim. Qeyd etməliyəm ki, Naxçıvanda qaldığım müddətdə hər gün hərbi hissəyə gedirdim və bayram günləri olduğundan burada mənim kimi çox valideynləri görmək mümkün idi. Mən də əsgər oğlumla görüşüb söhbət etdikdən sonra təbii ki, vaxtımın ən çox hissəsini Naxçıvanı gəzməyə, onu yaxından tanımağa sərf edirdim. Piyada gəzməyi çox sevdiyimdən həvanın soyuq olmasına baxmayaraq, hər gün şəhərin müəyyən hissəsini gəzib-dolaşırdım. Bakıda çox eşitmişdim ki, Naxçıvan bütün sahələrdə irəli gedib, dəyişərək müasirləşib. İndi bunu öz gözlərimlə görürdüm. Naxçıvan şəhərində bir çox qədim tikililər var ki, bu tikililər şəhərə xüsusi gözəllik verir. Dövlət orqanlarının yerləşdiyi bütün binaların hamısının müasir tikililər olduğunu gördüm. Eyni zamanda şəhər sakinləri dedilər ki, hər il burada yeni yaşayış binaları tikilir, köhnə binalar əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilir. Hamısı da fərqli memarlıq quruluşu ilə seçilir. Öyrəndim ki, binaların üzünə vurulan naxışlı üzlük daşlar Naxçıvanın öz yerli istehsalıdır. Buradakı bütün binalar mərkəzi istilik sistemi ilə təchiz olunub, işıq, qaz daimidir. Öyrəndim ki, şəhərdəki bütün ünvanlara yeni içməli su xətləri çəkilib, rayonlarda da bu iş davam etdirilir. Burada məni ən çox valeh edən isə şəhərin təmizliyinə həddən çox diqqət edilməsi idi. Heç bir küçədə, yolda adi kağız parçası belə, görmək mümkünsüzdür. Hər yerdə tullantı qutuları qoyulub. Eşitdiyimə görə hətta ucqar kəndlərdə də belə qutular var. Görünən odur ki, muxtar respublikada bu məsələyə böyük həssaslıqla yanaşılır və bu, naxçıvanlıların düşüncəsində də təsirsiz ötüşməyib. Hər kəs təmizliyə diqqət edir. Bir misal çəkim ki, orada qaldığım günlərdə qar da yağdı. Ancaq camaat işə getməmişdən artıq bütün avtomobil yolları xüsusi texnikalar vasitəsilə təmizlənmişdi. Yol-patrul xidmətinin əməkdaşları şəhərdə piyada və nəqliyyatın hərəkətinə daim nəzarət edir. Orada olduğum zaman şəhərdə sürətlə hərəkət edən avtomobil, yüksək siqnal səsi, piyadalara yol verməyən sürücülərlə heç rastlaşmadım. Sanki bir sehrli əl bütün bunlara nəzarət edirdi.

Naxçıvanın yaxşı turizm potensialı var. Həmin günlərdə vaxt tapıb şəhərdən bir neçə kilometr aralıda yerləşən "Duzdağ" otelinə, eyniadlı müalicə müəssisəsinə, Ağbulaq İstirahət Mərkəzinə də baş çəkdim. Buradakı yüksək xidmət, zövqlə yaradılmış infrastruktur Naxçıvanın turizmin inkişafı yönündə atdığı mühüm addımlardır. Etiraf etməliyəm ki, Naxçıvanda qaldığım son gün təəssüfləndiyim məqamlar da oldu. Çünki burada tanış olduğum insanlar bu cür gözəlliklərin Şərurda, Ordubadda, Culfada və digər rayonlarda da yaradıldığını dedilər. Mənim isə yenidən Naxçıvana gəlmək üçün öz-özümə söz verməkdən başqa çarəm qalmırdı və imkan düşən kimi bu istəyimi reallaşdıracağam.

**İlyas MƏMMƏDOV**
*İsmayıllı rayon sakini*

*Minnətdarlıq*

## Gerçəkləşən arzumuz – gözəlləşən kəndimiz...

***Dövlətimizin hərtərəfli diqqət və qayğısı sayəsində Şərur rayonunun Axaməd kəndi öz görkəmini tamam dəyişərək müasir yaşayış məntəqəsinə çevrilib. Asfalt yol, kənd sakinlərinin istifadəsinə verilən kənd və xidmət mərkəzləri insanların gündəlik həyatına bir yenilik gətirib.***



Bu qədim yaşayış məntəqəsində quruculuq tədbirləri çərçivəsində ucaldılan bir bina da var ki, onun istifadəyə verilməsini axamədlilər onlara dövlətimizin ən böyük hədiyyəsi, ən böyük töhfəsi kimi dəyərləndirirlər. Bu əzəmətli, üçmərtəbəli yeni obyekt kənd tam orta məktəbinin binasıdır. Mənim də bir zamanlar şagirdi olduğum Axaməd kənd tam orta məktəbinin köhnə binasında o vaxtlar xəyallarımızda qurduğum yeni məktəbimizin olacağına şübhəm yox idi. İnanırdım ki, bir gün bizim də isti sinif otaqlarımız, zəngin kitabxanamız, yalnız şəkillərini gördüyüm avadanlıqlarla zəngin laboratoriyamız olacaq.

Və bu gün artıq bu xəyallarımızın reallığa çevrildiyi günləri yaşayırıq. Düzdür, mən artıq şagird deyiləm, bir vaxt xəyalımda qurduğum məktəbdə müəllim kimi pedaqoji fəaliyyətə başlamışam. Mənə dərs demiş, elmə, biliyə yiyələnməyimdə böyük xidmətləri olmuş müəllimlərimlə birgə çalışmağımın verdiyi qürur hissindən əlavə, pedaqoji fəaliyyətimin ilk ilində bu yaraşıqlı, müasir standartlara cavab verən məktəbdə çalışmağım ayrı bir sevinc bəxş edir mənə. Eləcə də bütün kənd sakinlərinə.

Kiçik, Arazqırağı kəndimiz gözlərdən uzaq olsa da, könüllərdən iraq olmayıb. Zahirən kiçik görünən bu kənd yetişdirdiyi ziyalı və igid övladları ilə həmişə fəxr etmişdir. Belə ki, bu kənddə onlarla müəllimin müəllimi, alimlərin müəllimi olan şəxslər yaşamışlar ki, bu gün biz onların keçdiyi ömür yolunu özümüzə örnək seçmişik.

Növbəti dərs ilini ürəkaçan nailiyyətlərlə başa vurmağa çalışan kollektivimiz onlar üçün bu gün yaradılan bu əvəzsiz şəraitdə, inanıram ki, daha böyük nailiyyətlərə imza atacaqdır. Bunun əksi ola da bilməz!.. Çünki təhsilə göstərilən böyük qayğı bizi yalnız həvəsləndirə bilər.

Ötən il kəndimiz öz görkəmini dəyişdi. Kənd sakinlərinin arzuları, xəyalları gerçəkləşdi. Biz buna görə dövlətimizə, muxtar respublika rəhbərinə daim minnətdar olacağıq.

Ölkəmizin sürətlə inkişaf etdiyi bir dövrdə balaca məktəblilərin gələcəklə bağlı bütün arzularının həyata keçəcəyinə inanıram. Mənim gerçəkləşən arzum – gözəlləşən kəndim kimi...

**Tamaraxanım AŞURLU**
*Şərur rayon Axaməd kənd tam orta məktəbinin müəllimi*

## Yurdçu kəndi müasir yaşayış məntəqələrindən birinə çevrilib



*Hörmətli redaksiya!*

Çox sevinirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının bir çox kəndləri kimi, yaşadığım Kəngərli rayonunun Yurdçu kəndi də abadlaşıb, gözəl yaşayış məskəninə çevrilib.

Yol inkişafın, yüksəlişin, firavan həyatın göstəricisi hesab olunur. Bir vaxtlar palçıqdan keçilməz yollarımız bu gün gözəlliyi ilə göz oxşayır. Kəndimizdə inşa olunan məktəb binasının möhtəşəmliyini ifadə etmək üçün isə söz tapa bilmirəm. Qeyd etmək istərdim ki, ölkəmizin və qonşu ölkələrin bir sıra şəhərlərində olmuşam. Tam səmimiyyətimlə deyirəm, bir çox yerlərdə bəzi universitet binaları da belə gözəl, abad və möhtəşəm deyil. Ancaq əhalisinin sayına görə o qədər də böyük kənd olmayan Yurdçuda necə də gözəl məktəb binası inşa olunub. Bu, muxtar respublika rəhbərinin bölgələrimizə çox böyük diqqət və qayğısının bariz nümunəsidir.

Ali Məclisin Sədri bir neçə dəfə Yurdçu kəndində olub, kənddə subartezian quyusu istifadəyə verilib, kəhrizlər bərpa olunub, mənzillər telefonlaşdırılıb. Bu il yanvarın 14-də isə açılışı olan müasir məktəb binası, kənd və xidmət mərkəzləri Yurdçu kəndinin simasını tamamilə dəyişib. Qaz və rabitə xətlərinin yenilənməsi ilə birlikdə, necə deyərlər, kənddə şəhər rahatlığı yaradılıb. Bu isə yurduna bağlı olan kənd sakinlərinin təsərrüfatlarını genişləndirməsinə şərait yaradır, məskunlaşmanı artırır.

Bu gün vətənsevər, fədakar insanların əməyi nəticəsində gözəlləşən, şəhərləşən bir kəndimiz var. Bizim borcumuz isə tikilənləri, qurulanları qoruyub saxlamaq, muxtar respublikamızın inkişafına töhfə vermək, dövlətimizə, dövlətçiliyimizə sədaqətli olmaqdır.

**Feyzulla ƏLİYEV**
*Kəngərli rayonunun Yurdçu kənd sakini*

## Bu imkanı bizə yaratdığı üçün dövlətimizə minnətdaram

***Hörmətli redaksiya! Sizə bu məktubu Babək rayonunun Cəhri kəndindən yazıram. Həyat yoldaşım, baş leytenant Cəfər İbrahim oğlu Cəfərov 2012-ci il iyul ayının 20-də Tovuz rayonunun Əlibəyli kəndində döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Onun Vətənimiz qarşısında xidməti əvəzsiz qalmayıb, o, ölümündən sonra üçüncü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalına layiq görülüb.***



Şəhid ailəsi olmaq, şəhid övladı böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəfli bir işdir. Bəli, mən gənc yaşda həyat yoldaşımı, qızım isə öz atasını itirib. Qızım balaca olsa da, mən bu itkinin ağırlığını yaxşı dərk edirəm. Bilirəm ki, qızım heç vaxt atasını qarşılamaq üçün qapıya qaçmayacaq, atası onu öpüb oxşaya bilməyəcək. Cəfər bir daha ona çox yaraşan hərbi formada qapının astanasında görünməyəcək. Nə etmək olar, bu, taledir. Keçirdiyim hissləri ancaq oxşar hadisəylə qarşılaşanlar duya bilərlər.

Təəssüf ki, artıq 20 ildən çoxdur, Azərbaycanda oxşar həyatı yaşayan ailələr az deyil. Təsəllimiz odur ki, ordumuz tökülən qanları yerdə qoymur, düşmən bir əsgərimizin yerinə on əsgər itirir. Bir də onunla təsəlli tapıram ki, dövlətimiz, qədirbilən adamlar bizim qayğımıza qalır, rastlaşdığımız çətinliklərin aradan qaldırılması üçün öz köməklərini əsirgəmirlər. Elə ötən ilin dekabr ayında bizə yeni ev verilməsi təkcə məni və 4 yaşlı qızımı deyil, şəhidin valideynlərini, bütün Cəhri sakinlərini, qohumlarımızı, şəhidin dostlarını və yaxınlarını sevindirdi. Hər kəs bir daha şahidi oldu ki, dövlətimiz ölkəmizin ərazi bütövlüyü, xalqımızın əmin-amanlığı uğrunda canından keçmiş şəhid Cəfər Cəfərovun ailəsini tək qoymur. Mən də sevinirəm ki, artıq qışda soyuqdan, yayda istidən daldalanacağımız öz evimiz var, bu evdə, hər kəsin müqəddəs bir məkan kimi baxdığı şəhid ocağında qızımı rahat şəraitdə böyüdüb boya-başa çatdıra biləcəyəm. Bu ocağın divarlarında hər zaman qızımın qürurla hər kəsə göstərib, "Bu, mənim qəhrəman atamdır, o, Vətən uğrunda şəhidlik zirvəsinə ucalıb", – deyə biləcəyi şəhid Cəfərimizin şəkli asılacaq. Bu imkanı bizə yaratdığı üçün dövlətimizə minnətdaram.

**Aynur CƏFƏROVA**

*Razılıq*

## Bazarlarımızda bolluq və ucuzluqdur



*Hörmətli redaksiya!* Bir vətəndaş kimi mən bu məktubla hazırda dükan-bazarlarımızda satılan gündəlik tələbat mallarının keyfiyyəti və qiyməti barədə öz fikrimi bildirmək istəyirəm. Məlumdur ki, hər birimiz ərzaq məhsullarını aldıqda onların sağlamlığa faydalı olmasını istəyirik. Odur ki, mən də neçə illər əvvəl bazarlarımızda satılan mənşəyi məlum olmayan ərzaq məhsullarını alıb istifadə edəndə gələcəyimizi nə qədər təhlükələrə atdığımız haqqında çox fikirləşmişəm. Çünki biz naxçıvanlılar həmişə yüksəkkeyfiyyətli qidalara üstünlük vermişik. Yaxşı ki, indi bu sarıdan çətinliyimiz yoxdur. İstifadə etdiyimiz ərzaq məhsullarının əksəriyyəti yerli istehsaldır, qiyməti də münasibdir. İlin bu fəslində bazardan aldığımız bütün ərzaqların, hər cür ət və süd məhsullarının, meyvə-tərəvəzin keyfiyyətinə şübhəm yoxdur. Bilirəm ki, Naxçıvan torpağında yetişən bütün məhsullar keyfiyyətlidir. Dükan-bazarlarımızda yerli məhsulların bolluğu kənd təsərrüfatına göstərilən qayğının nəticəsidir. Əgər son illər yeni istixanalar, soyuducu anbarlar yaradılmasaydı, qış fəslində belə bolluq və ucuzluq olmazdı. Satın aldığımız bütün yerli məhsullar ürəyimizcədir. Bunun üçün dövlətimizə minnətdarıq.

**Ramiz QULİYEV**
*Naxçıvan şəhər sakini*

## *"Əbədi ezamiyyət"* sənədli filminin Naxçıvanda təqdimat mərasimi olub

***Dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə çəkilən "Əbədi ezamiyyət" sənədli filminin təqdimat mərasimi olub.***

Təqdimat mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilib.



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi aparatının rəhbəri Canməmmədov çıxış edərək bildirib ki, bu gün muxtar respublikada ilk dəfə olaraq Heydər Əliyev Fondunun dəstəyi, layihə rəhbəri Arzu Əliyevanın baş prodüserliyi ilə Bakı Media Mərkəzinin ərsəyə gətirdiyi "Əbədi ezamiyyət" sənədli filminin nümayişi olacaqdır.

Vurğulanıb ki, bugünkü tədbirin iştirakçıları arasında filmin yaradıcı heyətindən ssenari müəllifi Müsəllim Həsənov, quruluşçu rejissoru Fariz Əhmədov, quruluşçu operatoru Rəşad Nuriyev və filmin məsləhətçisi, həmçinin baş rolun ifaçısı Tahir Əliyev də vardır.

Filmin ssenari müəllifi Müsəllim Həsənov bildirib ki, "Əbədi ezamiyyət" filmi 1919-cu ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyətinin parlament sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına ezam etdiyi nümayəndə heyəti üzvlərinin milli dövlətçilik ideyaları uğrunda apardıqları mübarizədən, onların keşməkeşli taleyindən və qürbətdə bitən ömür yolundan bəhs edir.

Qeyd edilib ki, yaradıcı heyət filmin hazırlanması üçün il yarım müddətində Bakı, Tbilisi, Moskva, Sankt-Peterburq və Paris şəhərlərindəki arxivlərdə araşdırmalar aparıb, bu şəhərlərdə video və fotoçəkilişlər edib, Fransada Azərbaycan mühacirəti ilə bağlı tədqiqat aparan alimlərlə görüşləri və söhbətləri lentə alıb.

Müsəllim Həsənov "Əbədi ezamiyyət" sənədli filminin təqdimat mərasiminin Naxçıvanda keçirilməsinə göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Sonra filmə baxış olub.

Sənədli film tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin, AMEA Naxçıvan Bölməsinin, mədəniyyət müəssisələrinin əməkdaşları, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının üzvləri, muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**Xəbərlər şöbəsi**

## *"Rast dəstgahı"* muğam məclisi

***Naxçıvan Dövlət Filarmoniyasında "Rast dəstgahı" muğam məclisi olub. Tədbirin aparıcısı bildirib ki, muğam sənəti musiqi mədəniyyətimizin zəngin xəzinəsidir. Muğam hər bir azərbaycanlının mənəvi dünyasına əbədi daxil olmuşdur. Buna görə də muğam yalnız dünənin və bu günün deyil, həm də gələcəyin əbədiyaşar sənətidir.***

Bu gün Azərbaycanda muğam sənətinə dərin məhəbbət və ehtiram vardır. Muğamın qorunub saxlanılmasına və təbliğinə, bu sənəti yaşadanlara böyük qayğı göstərilir.

"Rast dəstgahı" muğam məclisində xanəndə və müğənnilərdən Azərbaycan Respublikasının Əməkdar artistləri Qurban Qasımov, Vilayət İsmayılov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Hünər Əliyev, Xatirə Səfərova, Zülfüqar Mahmudov, müğənnilərdən Qəribə Həsənova, Nərmin Hüseynova "Rast"ın şöbə və guşələrindən ibarət dəstgah ifa etmişlər.





Muğam ifaçılarını Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev (tarda), Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Aqib Seyidov (kamançada), Qasım Bağırov (balabanda), Məmmədəli Babayev (nağarada), həmçinin Sevinc Babayeva (qanunda) və Sərxan Abdullayev (udda) müşayiət etmişlər.

## *"Varlı qadın"* tamaşası Naxçıvan səhnəsində



***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının tanınmış yazıçı-dramaturq Əli Əmirlinin "Varlı qadın" komediyasının ilk tamaşası olmuşdur. Bu əsər müəllifin ikinci əsəridir ki, teatrımızın səhnəsində oynanılır.***

Əli Əmirlinin bu komediyasında hadisələr ölkəmizin iqtisadi çətinliklərlə üzləşdiyi bir dövrdə – keçən əsrin 90-cı illərində bir ailənin timsalında cərəyan edir. Gündəlik dolanışıq ucbatından elmi işini yarımçıq qoymağa məcbur olmuş Sarı Qarayevin güzəranı və onun axsaq arvadı Həvva Zərlinskayanın Almaniyada peyda olmuş yaxın qohumundan vərəsə kimi milyard dollar miras qalması tamaşanın fabulasına maraqlı hadisələrin baş verəcəyindən xəbər verir. Tamaşanın sonrakı hissəsində bu pullara sahib olmaq üçün qoyulan şərtlər gülüş situasiyalarının yaranmasına səbəb olur. Hadisə ilə bağlı jurnalistlərin yaratdığı səs-küy tamaşanın dinamikasını bir qədər də artırır. Əsər komediya janrında yazılsa da, əslində, hadisələrin mərkəzində dayanan personaj və obrazlar sosial problemlərdən doğan mənəviyyatsızlığı təqdim etməklə gülüş yaradır və həm də tamaşaçını düşündürürlər.

Komediyada əsas rolların ifaçıları aktrisa Nurbəniz Niftəliyeva (Həvva Zərlinskaya), Azərbaycan Respublikasının Əməkdar artisti Bəhruz Haxverdiyev (Sarı), aktyor Elnur Rzayev (Qara) bir ailənin simasında mənalı və şən gülüş yaradırlar.

Tamaşada başqa tiplər – Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Vüsal Rzayev (Dilənçi), gənc aktyorlar Anar Eyvazov (Vəkil), Səyyad Məmmədov (Əlvan), Nurlan Qafarov (Pəhləvan) bu hadisələrin gedişində daha çox öz xeyir və mənafelərini düşündükləri üçün gülüş hədəfinə çevrilirlər. Bu vəziyyətdən istifadə edib varlanmaq onların əsas məqsədidir.

Tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar artisti Mübariz Əsgərovdur.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin yanvar ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1868251 | 186825 | 187311 | 100,3 |
| 2. | Şahbuz rayonu | 872014 | 87201 | 87382 | 100,2 |
| 3. | Kəngərli rayonu | 1279261 | 127926 | 128166 | 100,2 |
| 4. | Sədərək rayonu | 403380 | 40338 | 40398 | 100,1 |
| 5. | Şərur rayonu | 3175429 | 317543 | 317943 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 4305470 | 430547 | 430925 | 100,1 |
| 7. | Culfa rayonu | 1923200 | 192320 | 192420 | 100,1 |
| 8. | Babək rayonu | 3334818 | 333482 | 333502 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10521791 | 1051455 | 871442 | 82,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27683614** | **2767637** | **2589489** | **93,6** |

## Cüdoçular üçün seminar təşkil edilib

***Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası idmançılar üçün seminarların keçirilməsini davam etdirir. Ötən il olduğu kimi, builki seminarlarda da Azərbaycanın tanınmış məşqçiləri, idman ustaları iştirak edirlər.***



Dünən federasiyanın nəzdində fəaliyyət göstərən cüdo bölməsinin yetirmələri üçün təşkil olunan nəzəri və praktiki seminarda Azərbaycan Respublikasının Əməkdar məşqçisi, ikiqat Avropa çempionu Tərlan Poladov iştirak edib. Əvvəlcə idmançılara cüdonun yeni qaydaları haqda məlumat verən məşqçi sonra praktiki olaraq yeni tərtib olunan qaydaları idmançılara nümayiş etdirib.

Məşqdən sonra Tərlan Poladovun fikirlərini öyrəndik: "Seminarın təşkilində məqsəd idmançılara yeni qaydalar haqqında məlumat vermək və məşq prosesində olan bəzi fəndləri aşılamaqdır. Muxtar respublikada bu idman növünün inkişafı üçün hərtərəfli şərait yaradılıb, idmançılarda da yüksək əhval-ruhiyyə var. Keçirilən məşqdən sonra məşqçilərlə də söhbətlərimiz, fikir mübadiləmiz oldu. Federasiya ilə birgə belə tədbirlərin qarşıdakı aylarda da təşkili nəzərdə tutulub".

Federasiyanın sədr müavini Faiq İsgəndərov isə bunları bildirdi: "Güləş Federasiyası belə seminarları mütəmadi olaraq təşkil edir. Federasiyamızın tərkibində olan idman növlərinin hər birinə ayrılıqda xüsusi diqqət göstərilir. Məqsədimiz həmin idman növlərini muxtar respublikada inkişaf etdirmək, idmançılarımızın beynəlxalq yarış təcrübəsini artırmaqdır. Keçirilən seminarlarda hər zaman tanınmış idmançılar, məşqçilər iştirak edirlər. Çalışırıq ki, seminarlar daha çox praktiki yöndə olsun. Eyni zamanda nəzəri seminarlarımızda da məşqçilərə, idmançılara məlumatlar verilir".

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Mehdiyeva Ülkər Elşən qızının adına Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbi tərəfindən 17 iyun 2015-ci il tarixdə verilmiş 05362 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 109